# "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 avqust tarixli 1423 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 avqust tarixli 1423 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 915 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1.3-cü hissədə "Ağdam" sözü "Xankəndi şəhərinin, Ağdam, Ağdərə" sözləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi haqqında Əsasnamə"nin 1.5-ci bəndində "Bərdə" sözü "Xankəndi" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2025-ci il*

---

Azərbaycan.- 2025.- 29 avqust (№ 181).- S.2.